# Tərcümə maarifçiliyi nədir, nəyə lazımdır? Bilik monopoliyasına qarşı alternativlər

written by briadmin




Əziz dostlar,

Sizi 10.08.2023 tarixində saat 19:00-da Bakı Araşdırmalar İnstitutu və İştirak Evinin birlikdə təşkil etdiyi "Tərcümə maarifçiliyi nədir, nəyə lazımdır? Bilik monopoliyasına qarşı alternativlər" mövzusunda müzakirəyə və kitab təqdimatına dəvət edirik.

Müzakirədə son illərdə ortaya çıxan yeni profilli tərcümə layihələri təqdim olunacaqlar. İştirakçılarımız "Egalite" nəşriyyatından Samirə Ələkbərli, Araz Bağırov, "Başla" nəşriyyatından Səid Riad, "Aqora" fəlsəfi ədəbiyyat

nəşrlərindən Emin İmanlıdır.

Moderator: İlkin Hüseynli

Müzakirədən sonra həmçinin bu nəşriyyatlarda çıxmış aşağıdakı kitabları əldə etmək imkanınız olacaq:

“Egalite”: Ursula L. Quin, “Mülksüzlər”

Ç.Aruzza, T.Bahattaçarya, N. Freyzer, “99% üçün feminizm manifest”

Hobsbaum, “1780-ci ildən bəri millətlər və milliyyətçilik: proqram, mif, reallıq”

BAİ-nin nəşri (“Başla”-da dərc olunub): C. Berkli, ¨Hilas və Filonus arasında üç dialoq¨ (ödənişsizdir)

“Aqora” fəlsəfi ədəbiyyat nəşrləri: Tomas Nagel, “Bütün bunlar nə deməkdir?”

Yuzef Boxenski, “Fəlsəfəyə giriş”

Enis Doko, “Tanrısız əxlaq mümkündürmü?”

Ünvan: Şamil Əzizbəyov küçəsi 140, İştirak Evi – Participation House (Jalə Plazada 5ci mərtəbədə)

Müzakirəni Facebook səhifəmizindən canlı izləyə bilərsiniz. Videoçəkiliş sonradan YouTube kanalımıza yerləşdiriləcək. Tədbir hər kəsə açıqdır. Elanı yaya bilərsiniz.

Hörmətlə,

BAİ komandası